Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)



# ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN HÜQUQLARININ TƏMİNİ

# Əlilliyi olan şəxs **kimdir**?

Əlilliyi olan şəxs - müxtəlif maneələrlə qarşılaşdığı zaman digər şəxslərlə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxsdir.

## Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsində əsas beynəlxalq və milli sənədlər:

- BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 2006-cı il 13 dekabr tarixli Konvensiyası
- Azərbaycan Respublikasının Konstitusiyası;
- "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu;
- "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Əlilliyin müəyyən olunması meyarları"nın təsdiq edilməsi və "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 413 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Qərar;
- Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı.



# Əlilliyi olan şəxslərin **hansı hüquqları var?**

- Reabilitasiya, abilitasiya və inkişaf;
- Cəmiyyətdə müstəqil iştirak və müstəqil həyat tərzinin təmini;
- Təhsil hüququ *(18 yaşınadək əlilliyi müəyyən olunmuş şəxslərin təlim-tərbiyəsi və peşə hazırlığı);*
- Əmək hüququ *(məşğulluğun təmin edilməsi, əmək şəraiti, fərdi əmək və sahibkarlıq fəaliyyətinin təmini);*
- Əlilliyi olan şəxslərin sosial və tibbi təminatı, sosial xidmətlərin göstərilməsi;
- Siyasi həyatda və ədalət mühakiməsində iştirak, müdafiə təminatı.

## Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının təmini ilə bağlı fəaliyyəti nədən ibarətdir?

Ombudsman əhalinin qayğıya daha çox ehtiyacı olan bu qrupunun problemlərinin həll edilməsi məqsədilə səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görür.

Bu sahədə fəaliyyətin səmərəliliyini artırmaq məqsədilə 2020-ci ildə Ombudsman Səbinə Əliyevanın təşəbbüsü əsasında Ombudsman Aparatında Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sektoru yaradılmışdır.

# Hüquqi **əsaslar**

BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasına uyğun olaraq və Ombudsmanın təklifləri nəzərə alınmaqla 2018-ci il mayın 31-də qəbul olunmuş “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir.

Konvensiyanın 33.2-ci maddəsində nəzərdə tutulmuş müstəqil mexanizm funksiyalarının həyata keçirilməsi Ombudsmana tövsiyə edilmişdir.





2023-cü ildə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununa edilən dəyişikliklərə əsasən, Ombudsmana "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirmək səlahiyyəti verilib.

## Ombudsman tərəfindən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi bir neçə istiqamət üzrə aparılır:

- Ombudsmana ünvanlanan **müraciətlərdə** əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müalicə və müayinənin aparılmasında yardımın göstərilməsi, tibb müəssisələrinə və reabilitasiya mərkəzlərinə göndərişlərin verilməsi, güzəştli dərman preparatları, köməkçi texnologiya vasitələri ilə təmin edilmə məsələlərinin həlli məqsədilə tədbirlərin görülməsi;

- Ombudsmanın **Milli Preventiv Mexanizminin funksiyalarının icrası çərçivəsində** əvvəlcədən xəbərdarlıq etmədən psixiatriya, xüsusi təhsil, sosial və penitensiar xidmət müəssisələrində, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə monitorinqlərin həyata keçirilməsi;

- Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən **aidiyyəti dövlət orqanları ilə bərabər vətəndaş cəmiyyəti, o cümlədən ixtisaslaşmış QHT-lər və media**, eyni zamanda **beynəlxalq təşkilatlarla** sıx əməkdaşlığı;



- Əlilliyi olan şəxslərin **hüquqi maarifləndirilməsi,** onlara qarşı yol verilən hər hansı ayrı-seçkilik, qeyri-insani rəftar və digər hüquqpozmaların aradan qaldırılması məqsədilə zəruri tədbirlərin görülməsi və **ödənişsiz hüquqi yardım kampaniyalarının təşkili;**

- Ombudsman tərəfindən əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasının, sosial inklüzivliyin təmin olunması ilə bağlı illik məruzələrdə **təkliflərin verilməsi,** habelə səlahiyyətli dövlət qurumlarına **müraciətlərin ünvanlanması;**

Ombudsmanın təklifləri nəzərə alınmaqla, əlilliyi olan şəxslərə münasibətdə **alçaldıcı səslənən bir sıra ifadələrin qanunvericilikdən çıxarılması məqsədilə,** qüvvədə olan qanunlarda və digər müvafiq normativ hüquqi aktlarda dəyişikliklər edilib. Bu da əlillik sahəsində indiyə qədər üstünlük təşkil edən ənənəvi tibbi modeldən, insan hüquqlarına əsaslanan sosial modelə keçidin təmin edilməsi deməkdir.

- **qanunvericiliyin təkmilləşdirilməsi,** dövlət proqramlarının və milli fəaliyyət planlarının hazırlanması prosesində iştirak.



# OMBUDSMANIN REGİONAL MƏRKƏZLƏRİ:

***Ombudsmanın Qərb Regional Mərkəzi:***
AZ2000, Gəncə ş., Heydər Əliyev meydanı
Tel: 0222560565

***Ombudsmanın Şimal-Qərb Regional Mərkəzi:***
AZ5500, Şəki ş., Məhəmməd Əmin Rəsulzadə pr., 139 A
Tel: 0242440133

***Ombudsmanın Şimal Regional Mərkəzi:***
AZ4000, Quba ş., Yusif Qasımov küç. 68,
Tel: 0233351599

***Ombudsmanın Cənub Regional Mərkəzi:***
AZ4400, Masallı ş., Heydər Əliyev prospekti, Masallı "ASAN həyat" kompleksi.
Tel: 0252151916

Ombudsmana
# MÜRACİƏT:

Bakı şəhəri, Üzeyir Hacıbəyli 80

E-GOV.AZ

apparat@ombudsman.az

**916** Çağrı Mərkəzi

## Qəbul günləri:

**Bazar ertəsi - Cümə**
**saat 09:00 - 18:00**

**Bakı şəhəri, AZ 1000**
**Üzeyir Hacıbəyli 80,**
**Vətəndaşların Qəbul Mərkəzi**

## ƏLAQƏ:

Tel: (+99412) 493 74 22
Fax:(+99412) 498 85 31

## Ombudsmanın rəsmi internet səhifəsi və sosial şəbəkə hesabları:

www.ombudsman.az

ombudsmanazerbaijan

ombudsman_az

ombudsmanazerbaijan

ombudsmanazerbaijan

ombudsmanazerbaijan

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə və
Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr edilir


